

*Malik əhmədoğlu*

### Belə qəmləri

Üst-üstə yığıldı, yenə nə deyim,
Çəkməyə can gərək belə, qəmləri.
İmkanım olmadı, belə həyayla
Verəm bir dəfəlik selə, qəmləri.

Can oldu dərdlərin əlində əsir,
Nə qədər qaçsamda dərd məni kəsir.
Özümə qapalı sayılır, bu sirr,
Taleyim qoymayır ölə, qəmləri.

Yaşaya-yaşaya dərdlərlə qoşa,
Gətirib çıxartdım bu ömrü başa
Yazma söyləsəmdə yazır yaddaşa,
Bu dərdli qismətim hələ, qəmləri.

Özümdən xəbərsiz qəlbimə dolan,
Hər yerdə hər zaman mənimlə olan.
Qovmaq istəyirəm candan can alan,
Yaşamaq eşqinə tələ, qəmləri.

Malik, sevinəcək sonda gülənlər,
Dərdi taleyindən qovub silənlər.
Ay məni özünə yaxın bilənlər,
Qoymayın yaxına gələ qəmləri.

### Oxu müğənni

Yeni mahnılara çox bağlanma sən
Oxu Qarabağdan oxu, müğənni.
Biz nələr çəkirik bilmək istəsən,
Oxu Qarabağdan oxu, müğənni.

Yad əldə boğulan nəfəsi dindir
İçində kök atmış həvəsi, dindir.
Səsinlə pas tutmuş qəfəsi sindir,
Oxu Qarabağdan oxu müğənni.

Xankəndi, Fizuli, Xocavənd hanı?
Xocalı səsləyir haya dünyanı
Çatıbdır qisasın daha zamanı,
Oxu Qarabağdan oxu müğənni.

Yadlaşma başlayıb çoxu anlamır
Hər yerdən üstümə kinayə damır.
Çayları qurudub daha bu xamır
Oxu Qarabağdan oxu müğənni.

Xanın nəfəsini oyat səsində
Kədərim dil açsın titrəməsində.
Ömrümü çürütdüm qəm kölgəsində
Oxu Qarabağdan oxu müğənni.

Malikin, dərdinə məlhəm ol bir an,
Yurdundan olanda ölürmüş insan.
Qisasa çağırır axıdılan qan,
Oxu Qarabağdan oxu müğənni.

### Qaytarar məni

Fikrimdə tutduğum, qismət olmasa,
Xəyalım o yerə aparar, məni.
Düşdüyüm kədərin, qəmin əlindən,
Yenə o xəyallar qurtarar, məni.

Ümidin ölməsə umduğun gələr,
Narahat dünyanı, rahatlıq bələr.
Yorsa bu bəndəni, kor düşüncələr
Təsəlli verənlər qurtarar, məni.

Malik, dərd üstündə gəldi bu zaman
Vətənsiz keçən gün yamanmış yaman
Allahdan əlimi üzmərəm bir an
Bir gün Qarabağa qaytarar, məni.

### Xatırlanır

Yadıma düşübdür bu yaz axşamı
Vətənsiz ağlayan el xatırlanır.
Ürəyim dağlara doğru tələsir,
Dərəyə yüyürən sel xatırlanır.

Daşların üstündə mamır qalağı
Daş üstə kök atan ağac calağı
Kol dibi qaynayan bir el bulağı
Önündə yaranan göl xatırlanır.

Uzanan çöllərin görünmür sonu,
Təbiət güllərlə bəzəyib onu.
Yenə təzələnib əyninin donu,
Yaşıla qərq olan çöl xatırlanır.

Köçəri quşların sevgi nəğməsi,
Bizə xatırladır ən həssas səsi.
Quşların xoşdur, xoş geri gəlməsi
Geridən boylanan il xatırlanır.

Malikin söz ilə dolub boxçası,
Kövrəldib qəlbini illərin yası.
Odunsuz qalıbdır bir el sobası,
İçində bərkimiş kül xatırlanır.

### Sözü yoxdusa

Elə sənətkardan gəl söz istəmə,
O sözün içində özün yoxdusa.
Gərəkdir girməyə söz meydanına,
O qələm əhlinin sözü yoxdusa.

Hisslərin dil açıb cilalanması
Ortaya çıxarır xoş bir təması.
Nə gərək belə bir odun yanması,
Yerində qalacaq közü yoxdusa.

Yaradan dil verib deyib-gülməyə,
Sevincsiz bu həyat dönər heç nəyə.
Can atmaz o yerdə kimsə zirvəyə,
O yerin dərəsi, düzü yoxdusa.

Hissləri yaşadan, Malik, ürəkdir
İnsanlıq anlamı dünyada təkdir.
O kəsin baxışı nəyə gərəkdir,
Gerçəyi görməyə gözü yoxdusa.

**2018**

